## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

---

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *10.07.2012* |
| Qeydiyyat nömrəsi | *16/2* |
| Adı | *"Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları"nın təsdiq edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *24.07.2012* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201207100162* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *23.07.2012* |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 1.5-ci bəndinə uyğun olaraq və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti:

Q Ə R A R A  A L I R:

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış "Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları" təsdiq edilsin (əlavə olunur);

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qaydaları 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin;

3. Mərkəzi Bankın İdarə Heyətinin 17.07.2009-cu il tarixli qərarı ilə (21 nömrəli protokol) təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 01.09.2009-cu il tarixdə 3467 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları” ləğv edilsin.

Sədr Elman Rüstəmov

**"Təsdiq edilmişdir"**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 16/2
10 iyul 2012-ci il

Sədr

______________________

**Elman Rüstəmov**

**Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin çıxarışlarının uçotu**

**Q A Y D A L A R I**

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 avqust 2004-cü il tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"na uyğun olaraq hazırlanmışdır. Qaydalar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (KÖMİS) çıxarışlarının uçotu qaydalarını müəyyən edir.

1.2. KÖMİS-in çıxarışları sistem vasitəsi ilə istənilən ödəniş alətlərindən (nağd pul, bank hesabları və ödəniş kartları) istifadə edilməklə ödəniş aparılarkən avtomatik rejimdə generasiya olunan mədaxil qəbzləridir.

1.3. KÖMİS-in çıxarışları sistemə qoşulmuş dövlət qurumlarının, fiziki və hüquqi şəxslərə xidmət göstərən müəssisələrin müəyyən etdiyi müvafiq hesablara aparılmış ödənişlərin təsdiqidir.

1.4. KÖMİS-in çıxarışlarının bu Qaydalarda müəyyən edilmiş rekvizitləri özündə əks etdirən forması Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

1.5. KÖMİS-in çıxarışlarının istifadəsinə nəzarət Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.

1.6. KÖMİS-in çıxarışlarını onlara oxşar rekvizitlərə malik olan, ciddi hesabat blankları sayılmayan ilkin uçot sənədləri ilə əvəz etməyə yol verilmir.

## 2. KÖMİS çıxarışlarının rekvizitləri

2.1. KÖMİS-in çıxarışları ödəyicinin hansı ödəniş alətindən istifadə etməsindən asılı olmayaraq eyni formaya malikdir və aşağıdakı rekvizitləri özündə əks etdirir:

2.1.1. sistemin operatorunun adı;

2.1.2. mədaxil qəbzinin unikal nömrəsi və tarixi;

2.1.3. dövlət qurumunun və ya xidmət müəssisəsinin adı;

2.1.4. ödəyənin KÖMİS-də unikal kodu və adı;

2.1.5. dövlət qurumunun və ya kütləvi xidmət müəssisəsinin daxili informasiya sistemində ödəyicinin (abonentin) kodu, adı, ünvanı, istehlak qrupu, hüquqi şəxsin və ya fərdi sahibkarın VÖEN-i;

2.1.6. qaimə borcu, qaimə üzrə ödənilməli məbləğ, qaimə üzrə ödənilən məbləğ rəqəm və yazı ilə, ödəniş üçün xidmət haqqı (tutulduqda), cəmi məbləğ, qalıq borcu;

2.1.7. qaimə nömrəsi;

2.1.8. təsnifat kodu (büdcə təsnifatının kodu);

2.1.9. büdcə səviyyəsi (büdcə səviyyəsinin kodu);

2.1.10. büdcə təşkilatı (büdcə təşkilatının kodu);

2.1.11. ödəniş vasitəsi;

2.1.12. tranzaksiya nömrəsi (yalnız ödəniş kartları vasitəsilə aparılan ödənişlər zamanı);

2.1.13. ödənişi qəbul edən təşkilatın adı və VÖEN-i;

2.1.14. əməliyyatçının və ödəyənin adı (yalnız nağd ödənişlər zamanı).

2.2. Əməliyyatların xarakterindən asılı olaraq, KÖMİS-in çıxarışlarına əlavə rekvizitlər daxil edilir.

## 3. KÖMİS-in çıxarışlarının nömrələnməsi

3.1. KÖMİS-in çıxarışlarının sıra nömrəsi sistem tərəfindən avtomatik rejimdə generasiya olunur.

3.2. KÖMİS-in çıxarışlarının sıra nömrələrinin sistemdə unikallığı mərkəzləşdirilmiş qaydada təmin olunur.

## 4. KOMIS-in çıxarışlarının uçotunun aparılması

4.1. KÖMİS vasitəsilə aparılan ödənişlər üzrə çıxarışların uçotu sistemdə avtomatlaşdırılmış qaydada aparılır.

4.2. KÖMİS-də aparılan ödənişlər haqqında məlumatlar qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə elektron imza ilə təmin olunmuş elektron sənəd şəklində saxlanılır.

4.3. KÖMİS-də aparılan ödənişin təsdiqi barədə çıxarış dərhal və ya istənilən vaxt, o cümlədən təkrar əldə edilə bilər.

4.4. KÖMİS-in çıxarışları 2 (iki) nüsxədən ibarət çap olunmaqla 1 (bir) nüsxəsi ödəyənə təqdim olunur, 1 (bir) nüsxəsi isə ödənişi qəbul edən təşkilatda saxlanılır (ödəniş sistem vasitəsilə bilavasitə ödəyici tərəfindən aparıldığı hal istisna olmaqla).